

**Ədalət Qasımov**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun “Əliyevşünaslıq”şöbəsinin müdiri,tarix elmləri doktoru, dosent*

# Azərbaycan SSR 1969-1982-ci illərdə. Dövlət müstəqilliyinin əsaslarının yaradılması

## *Respublikanın ictimai-siyasi həyatı*

Heydər Əlirza oğlu Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nin Birinci katibi seçilməsi ilə Azərbaycan xalqının müasir tarixində yeni mərhələnin, ölkə həyatının bütün sahələrində mütərəqqi dəyişikliklərin əsası qoyuldu.

Respublikada mövcud olan ağır sosial-iqtisadi böhrana son qoymaq üçün ilk növbədə ictimai-siyasi mühitin sağlamlaşdırılmasına nail olmaq, hakimiyyətlə xalq arasında yaranmış uçurumu aradan qaldırmaq, geniş xalq kütlələrinin hakimiyyət orqanlarına inam və etimadını bərpa etmək tələb olunurdu. Azərbaycan KP MK-nın 1969-cu ilin avqustunda keçirilmiş plenumunda respublikadakı mövcud ictimai-siyasi vəziyyət geniş müzakirə olundu, sosial-iqtisadi geriliyin səbəbləri hərtərəfli təhlil edildi, qarşıda duran əsas vəzifələr və onların həlli yolları müəyyənləşdirildi.

Qarşıda duran əsas vəzifələrdən biri respublikada qanunçuluğun möhkəmləndirilməsinə nail olmaq idi. Bunun üçün isə ciddi kadr islahatlarının həyata keçirilməsi tələb olunurdu. Buna görə də rəhbər vəzifələrə milli ruhlu, təşəbbüskar kadrlar təyin edildi.

Respublikada mövcud olan iqtisadi geriliyin əsas səbəbləri Azərbaycan KP MK bürosunun, Azərbaycan SSR Nazirlər Sovetinin işində ciddi nöqsanlarla bağlı olduğundan Heydər Əliyev siyasi iradə və qətiyyət nümayiş etdirərək işlərində nöqsanlara görə Azərbaycan KP MK bürosunun, Nazirlər Sovetinin və Rəyasət Heyətinin rəhbərliyini əsaslı şəkildə yeniləndirdi. Həyata keçirilən kadr dəyişiklikləri nəticəsində Azərbaycan KP MK-nın yeni katibləri, büro üzvləri seçilmişdi. Heydər Əliyev siyasi iradə göstərərək hüquq mühafizə orqanlarının, o cümlədən, Dövlət Təhlükəsizlik Komitəsi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Respublika Prokurorluğu və Ali Məhkəmənin rəhbərliyini də dəyişərək, yeni kadrlar təyin etmişdi. Heydər Əliyevin cinayətkarlığa, neqativ hallara qarşı mübarizə əzmini

Azərbaycan KP MK "Respublikada Cinayətkarlığa Qarşı Mübarizəni gücləndirmək tədbirləri haqqında" 7 mart 1971-ci il tarixli qərarı nümayiş etdirdi. Həmin qərarda bütün cinayət hallarının aşkarlanması, cinayətkarlığa qarşı vahid cəbhə təşkil edilməsi bir vəzifə kimi qarşıya qoyuldu. Bütün bunlar respublikada cinayətkarlıqla mübarizənin güclənməsinə, qətl, quldurluq, mütəşəkkil dəstələr tərəfindən törədilən cinayətlərin sayının kəskin azalmasına gətirib çıxardı.

Bu dövrdə siyasi sistemin əsas və aparıcı qüvvəsi Kommunist Partiyası olduğundan, yerli partiya komitələrinin fəaliyyəti respublika rəhbərliyinin xüsusi diqqət mərkəzində idi. 1970-ci illərdə və 80-ci illərin birinci yarısında Naxçıvan MSSR və DQMV, eləcə də rayon və şəhər partiya komitələrinin işində dönüş yaradılması məqsədilə Azərbaycan KP MK səviyyəsində mütəmadi qərarlar qəbul edilmiş, partiya komitələrinin rəhbər heyəti gücləndirilmişdi.

Respublikada ideoloji işi gücləndirmək üçün bir sıra radikal tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə 1971-ci ilin oktyabrında Azərbaycan KP MK-nın xüsusi plenumu çağırıldı. Plenumda bu sahədə yol verilmiş ciddi nöqsanlar barədə prinsipiallıqla danışılmışdı.

Qanunsuzluqlara və mənfi hallara qarşı aparılan ardıcıl mübarizənin nəticəsi olaraq, qısa müddət ərzində Azərbaycanda müstəsna dərəcədə yaxşı mənəvi siyasi şərait yaradılmış, adamlarda qanunların gücünə, həyata keçirilən tədbirlərin obyektivliyinə yaranan inamsızlıq aradan qaldırılmışdı.

Kommunist idealogiyasının hökmran olduğu bir şəraitdə belə respublikada azad fikrin, yaradıcılıq azadlığının təmin olunması üçün bütün imkanlardan istifadə olunurdu. Təsadüfi deyil ki bu dövrdə heç bir şair, yazıçı və  alimin əsərlərinə qadağa qoyulmamışdır. Milli azadlıq mübarizəsinin müjdəçisi sayılan çoxlu elmi və bədii əsərlər yazılmış, çap edilmiş, filmlər çəkilmişdir. Bu əsərlərin müəllifləri digər sovet respublikalarındakı həmkarlarından fərqli olaraq dissident kimi təqib olunmamış və ya sürgün edilməmişdir. Əksinə onların yaradıcılığı təbliğ edilmiş, respublikanın və Sovet İttifaqının ali mükafatlarına təqdim olunmuşlar. Heydər Əliyevin özü də etiraf edirdi ki, 1969-cu ildən 1987-ci ilə qədər kommunist partiyasında ən böyük dissident mən idim[1].

Ümumiyyətlə, "Azərbaycanda dissident və ya dissident hərəkatı olubmu?" sualına Heydər Əliyev belə cavab verirdi: "Bir dəfə -1989-cu ildə Moskvada bir jurnalist məndən müsahibə götürərkən Azərbaycanın keçmiş dövrü haqqında, yəni 70-ci illərdə mənim Azərbaycana rəhbərlik etdiyim zamandan danışırdıq:  Mənə sual

[1] Əliyev Heydər . Müstəqilliyimiz əbədidir. On üçüncü kitab, Bakı 1997, s.128-129.

verdi ki, sizdə, Azərbaycanda o vaxt dissident var idi , yoxsa yox idi? Dedim ki, yox idi. Dedi nə üçün? Dedim ki, biz dissidentləri axtarmırdıq. Təbiidir ki, əgər axtarsaydıq çox dissident çıxarmaq olardı. Amma biz axtarmırdıq. Bu nə deməkdir? Bu o deməkdir ki, həmin dissident sayılanların əksərlərini biz qəlbən qəbul edirdik və onların özünə yol tapması üçün imkanlar yaradırdıq. Beləliklə, həmin müəlliflərə öz həmrəyliyimizi bildirirdik. Ancaq geniş təbliğ etmirdik ki, biz bununla həmrəyik”[2].

“Bu insanlar təqib və təzyiqlərdən necə xilas ola bilmişlər?” sualının cavabını isə Heydər Əliyev belə açıqlayırdı: “Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işlədiyim zaman, bu orqanın başçısı olduğum zaman və ondan sonra Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə əks olan heç bir tədbir görülməmişdir. Biz heç bir dissident həbs etməmişdik, heç bir zaman heç bir adamı antisovet təbliğat, yaxud millətçi təbliğat üstündə həbs etməmişdik. Amma nə qədər belə təkliflər, belə təzyiqlər var idi...”[3]

Bütün bunların nəticəsi olaraq artıq 1970-ci illərin ortalarında ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda ciddi dönüş baş vermiş, respublika partiya təşkilatının və onun lideri Heydər Əliyevin nüfuzu xeyli artmışdı. Məhz bunun nəticəsi idi ki, Sov. İKP-nin 1976-cı ildə XXV qurultayından sonra keçirilmiş MK plenumunda Heydər Əliyev SSRİ-nin ali siyasi orqanı hesab edilən Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçilmişdi.

1970-ci illərdə Azərbaycan SSR-in ictimai-siyasi həyatında baş vermiş mühüm hadisələrdən biri də respublikanın yeni konstitusiyasının qəbul edilməsi oldu. Azərbaycan SSR-in sayca dördüncü konstitusiyası 1978-ci il aprelin 21-də, 1977-ci ildə qəbul edilmiş SSRİ Konstitusiyası əsasında qəbul edildi. Konstitusiyanın hazırlanması və qəbulu Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmişdir. Qəbul olunmuş konstitusiya formal da olsa, həmin dövr üçün öz müsbət və mütərəqqi müddəaları ilə seçilirdi. Konstitusiyada vətəndaşların hüquq və azadlıqları yeni məzmunla və əlavə maddi, hüquqi təminatlarla zənginləşdirilmişdi. 1978-ci il Konstitusiyasında “xalq hakimiyyəti”, “demokratiya”, “referendum” kimi mütərəqqi anlayışlar öz əksini tapmışdı. Qəbul olunmuş konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi o dövr üçün olduqca cəsarətli addım idi.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR bütün sahələrdə böyük uğurlara nail olmuş, onun özü isə fəaliyyəti, prinsipiallığı ilə bütün Sovetlər İttifaqının

---

[2] Sinematoqraf jurnalı. Heydər Əliyev və kino. Bakı, 2002, s.3
[3] Əliyev Heydər . Müstəqilliyimiz əbədidir. Onuncu kitab, Bakı 2002, s.342

ən nüfuzlu partiya və dövlət xadimlərindən biri kimi bütün dünyada şöhrət tapmışdı. Heydər Əliyevin yüksək idarəçilik keyfiyyətləri, işgüzarlığı nəzərə alınaraq 1982-ci ildə o Sov.İKP MK Siyasi Bürosuna üzv seçilmiş, eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdi.

### *Respublikanın sosial-iqtisadi inkişafı*

Yeni dəyişikliklər sosial-iqtisadi vəziyyətdə də özünü göstərdi. 1971-1980-ci illərdə respublika iqtisadiyyatına sərmayə qoyuluşu 21 milyard manata çatdırılmışdı ki, bu sovet dövrünün əvvəlki 50 ilində qoyulan vəsaitdən 1,5 dəfə çox idi[4]. Nəticədə bu illər ərzində milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı iki dəfə, xalq istehlakı mallarının istehsalı isə üç dəfə artmışdı. 250-dən çox zavod, fabrik, istehsal müəssisələri istifadəyə verilmişdi. İstehsal olunmuş sənaye məhsulları öz həcminə görə, əvvəlki 50 ildəkinə bərabər idi. Kənd təsərrüfatında məcmu məhsul da 2,7 dəfə artmış, bu sahədə məhsuldarlıq, o cümlədən əmək məhsuldarlığı iki dəfədən artıq çoxalmışdı[5].

Respublikada sənayenin maşınqayırma, kimya, neft-kimya, tikinti materialları, yeyinti sənayesi və başqa sahələrinin inkişaf imkanları çox olduğundan bu sahələrə diqqət artırıldı. 70-ci illərdə mənimsənilən sərmayə qoyuluşunun 45 faizindən çoxu bu sahənin artımı üçün istifadə edilirdi. Bu isə sənayenin strukturunda və coğrafiyasında ciddi dəyişikliklərin baş verməsinə səbəb oldu. Sənayenin sturukturunda 70-ci illərin sonu 80-ci illərin əvvəllərində onun bütün müasir sahələri təmsil olunurdu. 1982-ci ildə sənayenin sturukturunda kimya və kimya-neft sənayesinin, maşınqayırma və metal emalının, yüngül və yeyinti məhsulları sənayesinin xüsusi çəkisi 75,6 faiz təşkil edirdi.

Təbii sərvətlərindən respublikanın öz mənafeyi üçün daha səmərəli istifadə edilməsinə diqqət yetirilirdi. Yerli xammal resurslarından son hazır məhsullar istehsalı sahəsində ciddi irəliləyişlər baş verdi. Az vaxt içərisində yerli alüminium xammalı əsasında soyuducular üçün buxarlayıcılar və başqa hazır məhsulların istehsalı təşkil edildi. Salyan plastik kütlə emalı zavodu inşa edildi. Yerli xammal əsasında respublikada bütün növ parça məhsullarının, geniş çeşidli trikotaj, tikiş məmulatlarının və digər çoxlu hazır məhsulun həcmi artdı. Həmin vaxtlar bütün növ parça məhsulları 43 faiz, o cümlədən ipək parçalar iki dəfə, trikotaj məmulatları iki dəfədən çox, xalça və xalça məmulatları beş dəfəyə qədər artdı. Sumqayıtda nəhəng

---

[4] Azərbaycan–XXI əsrin üçüncü minilliyinin ayrıcında. Bakı, 2001, s.30

[5] Yenə orada.

EP-300 qurğusunun yaradılması Azərbaycan SSR-də kimya sənayesi istehsalının əsasını qoydu.

1970-ci illərdə yeni müəssisələr sənayenin istehsal quruluşunun təkmilləşdirilməsində və məhsul istehsalının artırılmasında əhəmiyyətli rol oynamışdır. Belə ki, həmin illərdə Azərbaycan SSR-də istifafəyə verilən yeni sənaye müəssisələri Sovet hakimiyyətinin əvvəlki 50 ilində istifadəyə verilən yeni sənaye müəssisələrinin 70 faizə qədərini təşkil edirdi.

Qeyd etmək lazımdır ki, bu yeni tikilən müəssisələr içərisində 1975-ci ildə istifadəyə verilmiş Bakı Məişət Kondisionerləri zavodunun tikintisi xüsusi əhəmiyyət kəsb edirdi. Öz profilinə görə Sovet İttifaqında yeganə olan bu zavodun buraxdığı kondisionerlərə bütün ölkədə böyük tələbat var idi.

Bu müəssisələrdən bir çoxunun respublikanın müxtəlif bölgələrində yaradılması ilk növbədə sənayenin regionlar üzrə qeyri-bərabər yerləşdirilməsi kimi ciddi problemin həllində mühüm rol oynadı.

Elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala geniş tətbiqi sayəsində Azərbaycan SSR SSRİ-nin ən iri elektrotexnika sənaye müəssisələrinin cəmləşdiyi respublikaya çevrildi. “Ulduz” elektrik cihazqayırma, “Azon” zavodlarının, Sumqayıtda məişət kompressorları zavodunun istifadəyə verilməsi də bu dövrə təsadüf edir. Respublikada 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı, buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

1970-ci ildən başlayaraq Azərbaycan SSR-də energetika sənayesinin inkişafına xüsusi diqqət yetirilirdi. Bu dövrdə Araz SES, Tərtər SES, Azərbaycan DRES, Şəmkir SES kimi nəhəng enerji obyektlərinin tikilib istifadəyə verilməsi nəticəsində elektrik stansiyalarının sayı 31-ə çatmış, elektrik enerjisi istehsalı iki dəfəyə qədər artmışdır[6].

Azərbaycan SSR-də metallurgiya sənayesinin inkişafında mühüm irəliləyişlər baş vermişdir. Respublikada 1970-ci ildə polad istehsalı 441 min tondan 1980-ci ildə 575 min tona çatmışdır. Əlvan metallurgiya sənayesinin coğrafiyası da xeyli genişlənmişdi. 1980-ci ildə Bakı, Naxçıvan və Gəncə şəhərində əlvan metallurgiya müəssisələri istifadəyə verilmişdi.

Respublika iqtisadiyyatının mühüm hissəsini yüngül sənaye sahələri təşkil edirdi. 1985-ci ildə Azərbaycan SSR-də əvvəlki illərlə müqayisədə pambıq lifi istehsalı 251,1 min ton, xam ipək sapı 456 ton, yuniplik 8,2 min ton, alt trikotaj paltarı 27,9

[6] Çox əsrlik tariximizin 34 ili. Arqumentlər, faktlar, şərhlər. s.10

milyon ədəd, üst trikotaj paltarı 12,9 milyon ədəd, xalça-palaz və xalça məmulatı 4045 min kv.m-ə çatdırılmışdı.

Yeyinti sənayesi ən sürətlə inkişaf edən sahələr arasında idi. Respublikada yeyinti məhsullarının istehsalı 1985-ci ildə 76.8 min ton ət, 29.1 ton kolbasa məmulatları, 219.6 ton üzlü süd məhsulları, 54.8 min ton bitki yağı, 619.9 mln şərti banka müxtəlif konservlər, 94.9 min ton qənnadı məmulatları, 164.1mln yarımlitrlik şüşə mineral sular, 117.9 min ton duz, 18.6 min ton təbii çay və s. yeyinti sənaye məhsulları istehsal edilmişdi. Ümumilikdə isə bu sənaye sahəsinin inkişafına görə Azərbaycan SSR SSRİ-də birinci yerdə dururdu.

Neft sənayesində tənəzzülün aradan qaldırılması istiqamətində mühüm addımlar atıldı. Dənizdə perspektivli neft yataqlarının kəşfiyyat işləri xeyli genişlənərək sürətləndi. Nəticədə "Azneft" üzrə neft hasilatının azalma sürəti 7,2 faizdən 4,3 faizə endi, 60-cı illərin sonu ilə müqayisədə 8 yeni neft və qaz yatağı kəşf edildi. Həmin dövrdə dənizin dərin yerlərində iş görmək üçün ilk növbədə 200 metrədək dərinliklərdə qazma işləri aparan qurğulara ehtiyac var idi. Məhz Heydər Əliyevin şəxsi nüfuzu və cəsarətli addımları sayəsində 12 il ərzində Azərbaycana 11 ədəd belə qurğu - ilk vaxtlarda dərinliyi 70 metr olan sahələrdə geoloji kəşfiyyat işlərinin aparılması üçün "Xəzər" tipli üzən qazma qurğularının, sonralar isə dənizin dərinliyi 200 metrə qədər olan yerlərində işləmək üçün "Xəzərdənizneft" və "Şelf" tipli üzən yarımdalma qazma qurğuları gətirildi. Nəticədə 1979-cu ildə dənizin 200 metr dərinliyində yerləşən ümumi resurs ehtiyatı 700 milyon ton neft və 200 milyard kubmetr qaz olan "Günəşli" yatağının, sonrakı illərdə bütün dünyada tanınan "Azəri", "Çıraq" və "Kəpəz" yataqlarının kəşfi də həmin qazma qurğularından istifadə ilə mümkün oldu. 1971-ci ildə Azərbaycan neftçiləri ilk dəfə olaraq sənaye üsulu ilə 100 illik neft hasilatı tarixində bir milyard ton neftin çıxarılmasına nail oldular. Bu dövrdə dəyəri 400 milyon dollardan artıq olan və SSRİ-də yeganə olan Dərin Dəniz Özülləri Zavodunun inşasına başlandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu zavodun əhəmiyyətindən bəhs edərkən qeyd etmişdir: "O illərdə yaradılmış potensial, xüsusilə dərin özüllər zavodunun fəaliyyəti bu gün də bizim neft potensialımızı gücləndirir. Əgər vaxtilə bu zavod Azərbaycanda yox, başqa bir yerdə tikilsəydi o zaman bizim müstəqillik dövründə xarici tərəfdaşlarla işlərimiz ləngidə bilərdi. Dərin Özüllər Zavodu bugünkü bizim neft strategiyamızın həyata keçirilməsində xüsusi rol oynayır"[7].

---

[7] İlham Əliyevin Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasimində nitqi // https://prezident.az/az/artikles/view/25878/

Neft-qaz sənayesində tətbiq olunan yeniliklər tezliklə öz bəhrəsini verdi. Yeni kəşf olunan neft və qaz yataqları hesabına neft ehtiyatları 2 dəfə, qaz ehtiyatları isə 3 dəfə artdı. Həmin dövrdə Azərbaycanda hər gün 41 min ton neft, 3 milyon kubmetr qaz çıxarılırdı[8].

Neft emalı müəssisələrinin sürətlə inkişaf etdirilməsi sahəsində görülən işlərin nəticəsində yaradılan möhkəm təməl bu gün müstəqil Azərbaycanda dünya standartlarına uyğun neftayırma sənayesinin formalaşdırılmasına imkan yaratmışdır.

Respublikada əsaslı tikintinin inkişafına böyük diqqət yetirilirdi. Respublikada nəhəng tikinti proqramı həyata keçirilmiş, əsas istehsal fondları 2,3 dəfə artmış, 445,2 min şagird yeri olan 700 ümumtəhsil məktəbi, çoxlu məktəbəqədər müəssisə, xəstəxanalar, mədəniyyət evləri, klublar, kinoteatrlar, ticarət və iaşə obyektləri və digər sosial obyektlər tikilib istifadəyə verilmişdi. Bakı, Gəncə, Sumqayıt, Naxçıvan şəhərlərində yeni yaşayış massivləri salınmışdı. 13 il ərzində Azərbaycan SSRİ-də 18,5 milyon kvadratmetr mənzil sahəsi tikilmişdir. Bu əvvəlki 50 il ərzində tikilən mənzil sahəsindən 60 faiz artıq idi. O dövrdə Bakı şəhərində yeni memarlıq abidələri inşa edilmişdir: Respublika Ali Sovetinin binası (indiki Milli Məclisin binası, Lelin adına saray (indiki Heydər Əliyev adına saray), “Gülüstan” sarayı, Şüvəlanda Azərbaycan Yazıçılar Birliyinin yaradıcılıq evi və s.

Azərbaycan SSR-də mühüm təsərrüfat əhəmiyyətli kommunikasiya vasitələrinin inkişafı ilə bağlı məsələlər respublika hökumətinin diqqət mərkəzində olmuşdu. Elmi-texniki tərəqqinin sürətlə inkişafından geri qalmış nəqliyyat və rabitənin maddi-texniki bazasının möhkəmləndirilməsinə mühüm əhəmiyyət verilmiş, infrastrukturun təkmilləşdirilməsi ilə yanaşı, bu sahənin davamlı inkişaf dinamikası təmin edilmişdi. Azərbaycan SSR-də vahid nəqliyyat sistemi yeni nəqliyyat əlaqələrinin genişləndirilməsi və mövcud olanların yeniləşdirilməsi hesabına inkişaf etməyə başlamışdı. 1982-ci ildə bütövlükdə nəqliyyatın yük dövriyyəsi 57,5 milyard ton kilometr təşkil etmiş və 1969-cu illə müqayisədə 42 faiz artmışdır[9].

1969-cu ilə qədər Azərbaycan SSR-də mövcud olan əsas problemlərdən biri yol tikintisinin günün tələblərindən geri qalması idi. Həmin ildə respublikada asfalt-beton döşənmiş avtomobil yollarının uzunluğu cəmi 21,1 min km. təşkil edirdi. 1970-ci illərdə geniş həcmdə yol tikintisi işlərinin həyata keçirilməsi sayəsində 1982-ci ildə bu rəqəm 23,9 min km-ə çatdırıldı. Avtomobil nəqliyyatının iş əmsalında da böyük sıçrayış əldə edilmiş və onun yük dövriyyəsi 1970-ci ildəki 3709 milyon ton km-dən 1982-ci ildə 8533 milyon ton km-ə çatmışdı.

---

[8] Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyinin ayrıcında. Bakı, 2001, s.30.

[9] Çox əsrlik tariximizin 34 ili., s. 11.

Respublikada rabitə sahəsində mühüm işlər görülmüşdü. İstehsalın həcmi 37,7 faiz çoxalmış, gəlirlər və səmərəlilik yüksəlmiş, əsaslı vəsait qoyuluşu 1,6 dəfə artmışdı. Şəhər telefon stansiyalarının imkanları 1,17 dəfə genişlənərək 117074 nömrəyə, kənd yerlərində isə 1,6 dəfə genişlənərək 32100 nömrəyə çatmışdı. Radiorele xətləri çəkilmiş, kabel magistrallarının inşasına başlanmış, beynəlxalq telefon kanallarının sayı artırılmışdı. Televiziya yayımları ilə respublika əhalisinin 78 faizi əhatə olunmuş, yaşayış məntəqələrinin 80 faizi radiolaşdırılmışdı. 1970-ci ilin aprelində rəngli televiziya verilişlərinin retranslyasiyası üçün radiorele xətləri çəkilişi başa çatdırılmışdı.

1969-1982-ci illər kənd təsərrüfatının inkişafında mühüm mərhələ olmuşdur. Həmin illərdə kənd təsərrüfatında pambıqçılığın, üzümçülüyün və taxılçılığın xüsusi çəkisi artmış, bu sahələrdəixtisaslaşma və mərkəzləşdirmə həyata keçirilmiş və möhkəm maddi-texniki baza yaradılmış, başlıcası isə kənd təsərrüfatının digər sahələrində inkişafın təmini istiqamətində mühüm qərarlar qəbul edilmişdir. Bu dövrdə melorasiya və su təsərrüfatı tikintisi torpaq fondunun sağlamlaşdırılması və suvarma drenaj sisteminin yenidən qurulması sahəsində böyük işlər görüldü. Araz çayı üzərində həcmi 1 milyard 350 mln kubmetr olan su anbar su elektrik stansiyası ilə birlikdə Mil-Muğan hidroqovşağı, Baş Mil kanalı, Yuxarı Mil və Yeni Xan qızı kanalları, Naxçıvanda üçpilləli Qaraçuğ və iki pilləli Arpaçay nasos stansiyası Naxçıvan suvarma sistemi, Abşeron suvarma sistemi, Lənkərançay su qovşağı, Mərkəzi Muğan və Cənub Şərqi Şirvan qış otlaqlarının su təminatı sistemlərivə bir çox digər obyektlər tikilib istismara verildi. Respublikanın təbii-iqlim şəraitini nəzərə almaqla işlənib hazırlanan tədbirlərin həyata keçirilməsi sayəsində kənd təsərrüfatı istehsalının daha da intensiv xarakter almasına, əkinçilik və heyvandarlığın sürətli inkişafına, əmək məhsuldarlığının səviyyəsinin yüksəldilməsinə, onun kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşmasına əlverişli zəmin yaranmışdır. 1982-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 1969-cu illə müqayisədə 2,5 dəfə artmışdır. 1970-82-ci illərdə orta illik məhsuldarlıq əvvəlki 13 ilin məhsuldarlığından taxıl üzrə 1,9 dəfə, tərəvəz üzrə 1,6 dəfə, meyvəçilik üzrə 1,4 dəfə, üzüm üzrə 2 dəfə, çay yarpağı üzrə 2,3 dəfə çox olmuşdu[10]. Azərbaycanda kəndin sosial-iqtisadi simasının yaxşılaşdırılması sahəsində kompleks tədbirlər həyata keçirilmiş, kəndlərin qazlaşdırılması, səhiyyə mədəni-maarif müəssisələri şəbəkəsinin genişləndirilməsi baxımından mühüm işlər görülmüşdür.

[10] Yenə orada, s.18.

Azərbaycan qazandığı müvəffəqiyyətlərə görə “Oktyabr İnqilabı” və “Xalqlar Dostluğu” ordenləri ilə təltif olunmuş, onuncu beşilliyin planlarını vaxtından əvvəl yerinə yetirdiyinə görə respublika üçüncü dəfə Lenin ordeninə layiq görülmüşdü. On iki il ard-arda respublika ümumittifaq sosializm yarışının qalibi olmuş və buna görə də “Qırmızı Bayraq”larla təltif olunmuşdu.

Respublikanın iqtisadi həyatında baş verən mütərəqqi dəyişikliklər cəmiyyətin sosial-mədəni həyatına, əhalinin maddi və mənəvi tələbatının daha dolğun ödənilməsinə əsaslı təsir göstərdi. Həyata keçirilən sosial-iqtisadi siyasətin məntiqi nəticəsi olaraq respublikanın milli gəliri, xüsusən onun istehlaka yönəlmiş hissəsi daha da artdı. Respublikada milli gəlirin artım sürəti əvvəlki onilliyə nisbətən 2,5 dəfə, adambaşına düşən milli gəlirin artım sürəti isə əvvəlki on illiyə nisbətən 2,7 dəfə çoxalmışdı. Əhalinin real gəlirlərinin önəmli şəkildə yüksəlməsi müşahidə edilirdi. Adambaşına real gəlir 1970-ci illə müqayisədə 1980-ci ildə 42 faiz artmışdır. Fəhlə və qulluqçuların orta aylıq əməkhaqqı 1970-ci ildəki 109,6 manatdan 1980-ci ildə 148,4 manata qalxmışdır.

Azərbaycan SSR-in demoqrafik vəziyyətində də nəzərə çarpacaq kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verirdi. Əhalinin sayı 1969-cu ildə 5,1 milyon nəfərdən 1982-ci ildə 6,4 milyon nəfərə çatmış, əhalinin milli-etnik, yaş-cins strukturunda mütərəqqi dəyişikliklər baş vermişdi. Əhalinin sayının artmasında ölüm əmsalının aşağı düşməsi (hər min nəfərə 1969-cu ildəki 7.0-dan 1982-ci ildə 6.7 nəfər) mühüm rol oynamışdır. Nikahların sayı artmış, boşanmaların sayı isə azalmışdır. Körpə ölümü də azalmışdır. Əsas demoqrafiq gösdtəricilərdən biri olan doğulanda gözlənilən ömür uzunluğu ölkə əhalisi üzrə 69,2 yaşdan 69,5 yaşadək yaxud 100,4 faiz artmışdır[11].

Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması respublika rəhbərliyinin öz qarşısında qoyduğu əsas vəzifələrdən biri idi. 1969-1982-ci illər ərzində Azərbaycan SSR-də 2 milyon 200 min adam, yəni respublikanın hər üçüncü sakini yeni mənzilə sahib olmuş və ya öz yaşayış şəraitini yaxşılaşdırmışdı.

Yaşayış məntəqələrində abadlıq işləri xeyli genişlənmiş, onların enerji, su və qaz yanacağı ilə təchizatı yaxşılaşmışdı. Yevlax-Şəki, Dəvəçi-Xaçmaz, Yevlax-Xankəndi, Gorus-Naxçıvan yüksək təzyiqli qaz kəmərləri çəkilmişdi.

1970-ci ildə Kür-Su kəmərinin birinci növbəsinin başa çatdırılmış, 15 sentyabr 1971-ci ildə isə əhalinin su ilə təminatının yaxşılaşdırılması üçün böyük əhəmiyyət kəsb edən ikinci növbə istifadəyə verilmişdi.

---

[11] Xalqa həsr olunmuş illər. II nəşr, Bakı, 2013 , s.40-42.

Respublika əhalisinin sağlamlığının qorunması sahəsində mühüm tədbirlər həyata keçirilirdi. Aparılan uğurlu səhiyyə siyasəti nəticəsində tibb müəssisələrinin ali və orta ixtisaslı kadrlarla təchiz olunmasında ciddi irəliləyişlər əldə edildi. 1970-ci ildə tibb müəssisələrində çalışan həkimlərin sayı 13.100 nəfərdən 1980-ci ildə 20.700 nəfərə çatmış orta tibb personallarının sayı müvafiq olaraq 39.700 və 52.200 nəfər təşkil edirdi.

Bədən tərbiyəsi və idmanı müasir tələblər səviyyəsinə qaldırmaq üçün mühüm işlər görüldü. Əvvəlki illərlə müqayisədə idman kollektivlərinin, bədən tərbiyəsi ilə məşğul olanların sayı artmış, idman kütləvi hal almağa başlamışdır. 1970-ci ildə respublikada 5455 idman kolletivi var idisə, 1984-cü ildə onların sayı 7876 çatdırılmış, bədən tərbiyyəsi və idmanla məşğul olanların sayı müvafiq olaraq 1723 mindən 2241 minədək artmışdı.

### *Ermənistanın ərazi iddialarının qarşısının alınması*

Respublika rəhbərliyinin fəaliyyətinin prioritet istiqamətlərindən biri də erməni separatçılığı ilə mübarizə idi. Həmin illərdə erməni millətçiləri mütəmadi olaraq Qarabağın və Naxçıvanın Ermənistanın tarixi torpağı olduğu məsələsini qaldırırdılar. Sonralar Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından bəhs edən Heydər Əliyev qeyd edirdi: “30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərdə də erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdı. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam” [12] . Erməni millətçiləri Azərbaycan ilə sərhədlərin yenidən baxılması məsələsini adətən respublikada və ölkədə mühüm siyasi dəyişikliklər və ya əlamətdar tarixi hadisələrin qeyd olunması ərəfəsində qaldırırdılar. 1972-ci ildə bütün ölkədə SSRİ-nin və DQMV-nin yaranmasının 50 illiyinə hazırlıq işləri gedərkən də belə olmuşdu. 1972-ci ildə Ermənistan SSR-in bir qrup üzdəniraq ziyalısının imzası ilə Sov. KP MK-nın Baş katibi Leonid Brejnevə məktub göndərmişdilər. Məktubda Ermənistan SSR və Dağlıq Qarabağın ayrı-ayrılıqda mövcudluğunun mümkünsüzlüyünü “əsaslandırmağa” çalışan iddialar öz əksini tapmışdır. Müraciətdə müxtəlif “arqument”lərlə yanaşı, muxtar vilayətin sosial-iqtisadi cəhətdən aşağı göstəricilərə malik olduğu da əsas kimi göstərilmişdi. Ermənilərin bu cəhdlərinə qarşı Heydər Əliyevin imzası ilə Moskvaya göndərilən

[12] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. Bakı, 2005, s. 399.

məktubda onların bütün əsassız iddiaları konkret faktlarla təkzib edilmiş, Azərbaycanın ərazi bütövlüyünə qəsd planlarının qarşısı alınmışdı[13].

1977-ci ildə SSRİ-nin yeni konstitusiyası hazırlanan zaman erməni millətçiləri yenidən Moskvaya məktublar göndərərək SSRİ-nin inzibati-ərazi quruluşunda dəyişikliklərin edilməsini, Naxçıvan MSSR və DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılaraq Ermənistan SSR-ə verilməsini təklif etdilər. Müraciətdə Dağlıq Qarabağın güya Azərbaycanın digər rayonları ilə müqayisədə iqtisadi cəhətdən geri qalması, əsaslı vəsait qoyuluşunun azlığı, erməni əhalisinin siyasi və mədəni hüquqlarının məhdudlaşdırılması kimi saxta və yalan iddialar öz əksini tapmışdır. Konstitusiya komisssyasının üzvü olan Heydər Əliyev ermənilərin təkliflərindən xəbər tutan kimi dərhal onlara öz qəti və kəskin etirazını bildirmişdi. Heydər Əliyev Sov. KP MK-nın Baş katibi Brejnevlə görüşərək Azərbaycan SSR-in ərazi bütövlüyünün pozulmasının qarşısını almağa nail olmuşdur. Həmin tarixi anı Heydər Əliyev sonralar belə xatırlayırdı: “77-ci ildə (1977.-red.) SSRİ-nin yeni Konstitusiyası qəbul olunurdu. Konstitusiya komissiyası təyin olunmuşdu, sədri Brejnev idi, biz də onun üzvü idik, mən də Azərbaycanın nümayəndəsi idim. Vaxtaşırı komissiyanın müzakirələri keçirdi. Bunları da o vaxt Mərkəzi Komitənin katibi vardı-akademik Ponomaryov- o aparırdı. Brejnev o qədər iştirak eləmirdi. Bir dəfə Moskvaya, komissiyanın iclasına gəldim. Gördüm, xeyli ərizə gəlib ki, “Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır” gördüm ki, Ponomaryov deyir bunu komissiyanın müzakirəsinə qoymaq lazımdır - ermənilər ona da təsir göstərirdilər...Hələ komissiyanın iclasından bir gün qabaq mən buna nə qədər etiraz elədim, gördüm yox... Yenə də getdim rəhmmətlik Brejnevin yanına. Ona dedim ki, bu nədir, belə şey ola bilməz! O, telefonu götürüb Ponomaryova zəng elədi ki, çıxar onu”[14].

Ümumiyyətlə, Azərbaycan SSR-ə rəhbərlik etdiyi 1969-1982-ci illərdə Heydər Əliyev Azərbaycanın bir qarış torpağının belə Ermənistana verilməsinə razı olmamış, ermənilərin torpaq iddialarının, Dağlıq Qarabağda separatist hərəkətlərinin qarşısını qətiyyətlə almışdır.

### *Təhsilin və milli mədəniyyətin inkişafında yeni mərhələ*

[13] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi (sonra ARPİİİSSA). Fond 1, siyahı 59, iş 185, vərəq 36-47.
[14] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi üçüncü kitab. Bakı, 2008, s.95-96.

1969-1982-ci illərdə Azərbaycan SSR-də təhsilin bütün formalarının inkişafı sahəsində çox böyük uğurlar əldə edilmiş, məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları yeni inkişaf mərhələsinə qalxmış, xalqın ümummədəni və intellektual səviyyəsi xeyli yüksəlmişdir. Ümumi təhsilə və uşaqların tərbiyəsinə dövlət büdcəsindən ayrılan vəsait 1,7 dəfə artaraq 1970-ci ildəki 219,8 milyon manatdan, 1980-ci ildə 363,9 milyon manata çatdırılmışdı. Məktəb binalarının tikintisi geniş vüsət almış, respublikada 16,2 min yerlik 761 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdi. 1982-ci ildə Azərbaycan SSR-də 4395 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Həmin məktəblərdə 1,5 milyondan çox şagird təhsil alırdı.

Ümumtəhsil məktəblərində müəllimlərin sayı 1,6 dəfə artaraq 1982-ci ildə 117 min nəfərə çatmışdır. Onların 73,8 faizini ali təhsillilər təşkil edirdi.

İctimai istehsalın genişlənməsi, əmək ehtiyyatlarının ictimai əməyə daha çox cəlb olunması, əhalinin mədəni səviyyəsinin yüksəlməsi, məktəbəqədər uşaq müəssisələrinə təlabatın xeyli artmasına səbəb olmuşdur. Respublika rəhbərliyinin bu sahəyə diqqət və qayğısı sayəsində uşaqların məktəbəqədər ictimai tərbiyyəsinin təşkili işi xeyli yaxşılaşdı. 1970-80-ci illərdə 51,8 min yerlik məktəbəqədər uşaq müəssisəsi istifadəyə verildi. 1982-ci ildə məktəbəqədər müəssisələrin sayı 1956-a çatdırıldı. Həmin müəssisələrdə 153,4 uşaq tərbiyyə olunurdu ki, bu isə 1970-ci illə müqayisədə 42,8 min nəfər çox idi.

Azərbaycan SSR-də gedən sürətli iqtisadi quruculuq prossesi sənayenin və kənd təsərrüfatının coşqun inkişafı, yüksəkixtisaslı fəhlə kadrlara təlabatı artırmış və bu isə texniki peşə təhsili şəbəkəsinin genişlənməsinə zəmin yaratmışdı. Bu illərdə respublikada 100 yeni peşə texniki təhsili məktəbi tikilib istifadəyə verilmişdi. Artıq 1982-ci ildə respublikada 184 texniki peşə məktəbi fəaliyyət göstərirdi və burada 109 min şagird təhsil alırdı. Halbuki 1970-ci ildə bu məktəblərdə təhsil alanların sayı müvafiq sürətdə 76 və 40,9 nəfər idi. Həmin illərdə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində çalışan fəhlələrin 70-80%-i peşə məktəblərinin məzunları idi.

Respublikada ali və orta ixtisas təhsilinin inkişafı, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması dövlət siyasətinin üstün istiqamətlərinə çevrilməyə başladı. Azərbaycan SSR-də 7 müxtəlif profilli yeni orta ixtisas məktəbi açılmış, bu tipdən olan təhsil müəssisələrinin maddi-texniki bazası xeyli güclənmiş, tələbələrin sayı əhəmiyyətli dərəcədə artmışdı. 1980-ci ildə respublikada 79 orta ixtisas təhsili müəssisəsində 191 ixtisas üzrə mütəxəssis hazırlanırdı.

Azərbaycan SSR-də ali təhsil daha da inkişaf etmiş, ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə çatdırılmışdı. 1982-ci ildə respublikanın ali məktəblərində 108.2 min nəfər tələbə təhsil alırdı.

Bu dövrdə respublika gənclərinin SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almasının təşkilinə xüsusi önəm verilirdi. 1970-80-ci illərdə SSRİ-nin beşdən çox şəhərində 135 mülki, 105 hərbi ali məktəbdə Azərbaycan SSR üçün 17 mindən çox mütəxəssis kadr hazırlanmışdı. Bu Azərbaycanın gələcək inkişafı üçün güclü kadr potensialının formalaşmasına böyük təsir göstərmişdir.

Azərbaycanın taleyüklü məsələlərini vaxtında görən, onun gələcəyini düşünən Heydər Əliyev respublika üçün milli hərbi kadrların yetişdirilməsinə böyük önəm verirdi. O, 1971-ci ildə Bakıda C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin açılmasına nail olmuşdu[15].

Respublikada fundamental və tətbiqi elmlərin inkişafı ilə bağlı sistemli tədbirlər həyata keçirilmişdir. Respublika rəhbərliyinin düşünülmüş, ölkənin və xalqın ümdə maraqlarına söykənən elmi strategiyası sayəsində Azərbaycan elmi yeni inkişaf səviyyəsinə çatmış, dünya elminə layiqli töhfələr vermişdi. Elmi müəssisələrin sayı 1969-cu ildəki 142-dən 1982-ci ildə 151-ə, elmi tədqiqat institutlarının və onların filiallarının sayı 73-dən 85-ə çatmışdır. Respublikanın regionlarında Elmlər Akademiyasının elmi müəssisələrinin və təşkilatlarının coğrafiyası əhəmiyyətli dərəcədə genişlənmiş, o cümlədən Naxçıvan və Gəncə Elm Mərkəzləri (1972) Şəki Regional Elmi bazası (1972), Zaqatala elm eksperimental meydançası və digər rayonlarda biologiya profilli institututların bir sıra təcrübə təsərrüfatları təşkil olnumuşdu. Elmi tədqiqatların maliyyələşdirilməsi və maddi-texniki təminatı da xeyli yaxşılaşdırıldı. Belə ki, 1970-ci illə müqayisədə 1980-ci ildə elmi tədqiqatların maliyyələşdirilməsi 11180 min manat artmışdı. 1969-1982-ci illərdə elmi işçilərin sayı 17082 nəfərdən 22989 nəfərədək, elmlər doktorlarının sayı 652 nəfərdən 931 nəfərə, elmlər namizədlərinin sayı isə 5346 nəfərdən 8725 nəfərədək artmışdı[16]. Həmin illərdə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi və müxbir üzvlüyünə dörd dəfə seçkilər keçirilmiş, nəticədə həqiqi, müxbir üzvlərinin və professorların sayı 1970-ci ildəki 506 nəfərdən 1982-ci ildə 735 nəfərə çatmışdı. Bu dövrdə respublikada elmin ən perspektivli sahələri üzrə geniş tədqiqat işləri aparılırdı. Elmlər Akademiyasının müəssisələrində təbiət elmləri və ictimai elmlər sahəsində aparılan fundamental tədqiqatlar nəticəsində 2280 elmi, elmi-texniki və xalq təsərrüfatı əhəmiyyətli nəticə alınmışdı.

---

[15] ARPİİİSSA., Fond 1, siyahı 58, iş 113, vərəq 22

[16] Heydər Əliyev. İki cilddə. 1-ci cild. Bakı ,2013, s.274

Azərbaycan SSR mənəvi-mədəni sahədə də ciddi uğurlara nail olmuş, respublika əsil mədəni intibah və dirçəliş yoluna çıxmışdı.

Azərbaycan xalqının mədəni, bəddi estetik, ideya siyasi səviyyəsinin yüksəlməsində onun mədəni ehtiyaclarının təmin eidlməsində mədəni-maarif işini çox mühüm amillərdən biri olduğunu nəzərə alaraq respublika rəhbərliyi bu sahəyə xüsusi diqqət yetirirdi. Respublikada mədəni-maarif müəssisələrinin genişləndirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, xüsusən kənd yerlərində mədəniyyət evlərinin, klubların, kitabxanaların, və digər sosialmədəni obyektlərin tikintisinin sürətlənməsi ilə əlamətdar olmuşdur. Həmin illərdə respublikanın şəhər və kəndlərində 220 min yerlik 1066 mədəniyyət evi və klub müəssisələri 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdir. Klub müəssisələrinin sayı 2146-dan 3680-ə, kütləvi kitabxanaların sayı 2004-dən 2167-ə çatdırılmışdı. Kütləvi kitabxanalarda kitab və jurnalların sayı 23 milyon nüsxədən 45,3 nüsxəyə çatdırılmışdı. Respublikada 87 yeni muzey, onlarla tarixşünaslıq muzeyləri yaradıldı. Azərbaycan tarix muzeyinin fondları zənginləşdirildi.

Tarixi-mədəni abidələrin qorunması, bərpası istiqamətində mühüm işlər görülmüş, bu sahədə onlarla tarixi qərar qəbul edilmişdir. 1970-ci illərdə İçərişəhər Dövlət Tarix Memarlıq, Qəbələ Dövlət Tarixi Bədii, “Lahıc” Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılmış, 52 tarix memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox abidələrin pasportu hazırlanmışdır.

Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin inkişafına da diqqət və qayğı güclənmişdir. 1969-cu ilin sonlarından başlayaraq Azərbaycan ədəbiyyatının klassikləri, istərsə də yeni dövrün görkəmli şair və yazıçılarının, o cümlədən dahi mütəfəkkir Nizami Gəncəvinin 840, Nəsrəddin Tusinin 780, İmaməddin Nəsiminin 600 illik yubileylərinin keçirilməsi, əsərlərinin nəşri, ölkənin hüdudlarından kənarda təbliği, abidələrinin ucaldılması, xatirələrinin əbədiləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Həmin illərdə 20 cildlik “Azərbaycan klassik ədəbiyyatı kitabxanası” işıq üzü görmüş, 50 cildlik “Dünya uşaq ədəbiyyatı kitabxanası” 100 cildlik “Dünya ədəbiyyatı kitabxanası” nın nəşrinə başlanılmışdır.

Respublika rəhbəri Heydər Əliyevin Azərbaycan ədəbiyyatı qarşısında ən böyük xidmətlərindən biri repressiya qurbanları olmuş yazıçı və şairlərin adının əbədiləşdirilməsi olmuşdur. Görkəmli şair-dramaturq Hüseyn Cavidin nəşinin uzaq Sibirdən gətirilərək Naxçıvan torpağında dəfn edilməsi, adının əbədiləşdirilməsi, onun 90 və 100 illik yubileylərinin keçirilməsi, Bakıda və Naxçıvanda ev muzeylərinin yaradılması, əsərlərinin nəşr edilməsi ilə bağlı siyasi qərarlar qəbul edilmişdi. Vaxtilə

repressiyaya məruz qalmış Yusif Vəzir Çəmənzəminlinin 1977-ci ildə 90 illiyi, Mikayıl Müşfiqin 1978-ci ildə 70 illiyi təntənəli şəkildə qeyd edildi.

Xalq yaradıcıllığının inkişafı üçün geniş imkanlar yaradıldı. 70-ci illərdə Tovuz rayonunda "Ozan" aşıq muzeyi, Akstafa şəhərində saz məktəbi açılmışdı. Kütləvi informasioya vasitələrində radio və televiziyada xalq yaradıcıllığının nümunələri geniş təbliğ olunurdu. "Ocaq", "Bulaq", "Ozan" "Elin sözü-elin sazı" verlişləri dastan axşamları qəzetlərdə və jurnallarda verilən folkliyor səhifələri xalq yaradıcıllığının qorunub saxlanılması , tanınması sahəsində çox uğurlu işlərdən idi.

XX əsrin 70-80-ci illərində Azərbaycan musiqi mədəniyyəti və incəsənəti özünün ən yüksək səviyyəsinə çatdı. Azarbaycanda yaşlı nəsil bəstəkarlarının yaradıcılıq fəaliyyətinin güclənməsi, yeni bəstəkarlar nəslinin yaranması, bütün musiqi janrlarında mühüm nailiyyətlərin əldə edilməsi, beynəlxalq musiqi əlaqələrinin genişlənməsi ilə səciyyəvi olmuşdu. 70-ci illərdə Üzeyir Hacıbəyov məktəbinin davamçıları olan Qara Qarayevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun, Tofiq Quliyevin və başqalarının əsərləri Azərbaycan müsuqisini daha da zənginləşdirdi.

Respublikada müsiqi ifaçılığı sənəti, o cümlədən estrada və saz musiqisi də uğurla inkişaf edirdi. "Qaya" vokal–instrumental ansamblı, Rəşid Behbudovun rəhbərlik etdiyi Dövlət Mahnı Teatrı, dövlət estrada simfonik orkestri və bu kimi digər kollektivlərin bu sahədə böyük xidmətləri var idi.

Azərbaycan milli teatrı və kino sənəti özünün əsl dirçəliş dövrünü yaşayırdı. Heydər Əliyevin himayəsi, incəsənət insanlarına dövlət qayğısı nəticəsində teatr sənəti sürətli inkişaf yoluna daxil olmuşdu. Azərbaycan rejissorluq məktəbinin ənənələrini, milli özünəməxsusluğunu Ədil İsgəndərov, Tofiq Kazımovski, Mehdi Məmmədov və başqaları müvəffəqiyyətlə inkişaf etdirirdilər.

Bu illərdə milli kino sənətinin "Nəsimi", "Babək", "İstintaq", "Axırıncı aşırım", "Dədə Qorqud", "Tütək səsi", "Ulduzlar sönmür" kimi maraqlı əsərləri meydana gəldi.

Azərbaycan rəssamlıq məktəbi daha da inkişaf etmişdi. Bu dövrün ən görkəmli nümayəndələri M.Abdullayev, T.Salahov, T.Nərimanbəyov, M.Əbdürrəhmanov, M.Rəhmanzadə, O.Sadıqzadə və b. öz əsərləri ilə Azərbaycan milli rəssamlıq sənətinin inkişafına böyük töhfə vermişdilər.

Respublikada ideoloji işdə, xalqın siyasi və mənəvi tərbiyəsində kütləvi informasiya vasitələrinin böyük rolunu nəzərə alaraq bu sahənin inkişafına xüsusi diqqət göstərilirdi. Bunun nəticəsi olaraq 1981-ci ildə Azərbaycan SSR-də birdəfəlik tirajı təxminən 33,7 min nüsxə olan 136 qəzet, 88 jurnal və başqa nəşrlər buraxılırdı. Televiziya və radio verilişləri daha da inkişaf etmişdi. 1976-cı ildə Azərbaycan

radiosunun 50 illiyi, 1981-ci ildə Azərbaycan televiziyasının 25 illiyi təntənəli surətdə qeyd edilmişdi.

Uşaq və gənclər mətbuatı gənc nəslin estetik zövqünün formalaşmasında ən mühüm vasitə idi. “Azərbaycan gəncləri”, “Molodyoj Azərbaydjana”, “Pioner” qəzetləri, “Ulduz” , “Göyərçin” jurnalları yüksək tirajla çıxırdı.

Beləliklə, Heydərə Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikanın ictimai-siyasi, sosiai-iqtisadi, mədəni həyatında mütərəqqi dəyişiklər baş vermiş, həmin illərdə qazanılan müvəffəqiyyətlər öklənin gələcək müstəqil inkişafi üçün əsaslı zəmin yaratmışdır.